# RÜBLÜK İCMAL

## “2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı”

AZƏRBAYCAN RESPUBLİKASI
TƏHSİL NAZİRLİYİ




# RÜBLÜK İCMALIN MƏQSƏDİ

"2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı” təqaüdçüləri təhsil aldıqları ali məktəblərdə yüksək akademik göstəricilər nümayiş etdirməklə yanaşı, eyni zamanda Azərbaycan tarixi və mədəniyyətinin təbliğində, Dağlıq Qarabağ münaqişəsi və ölkəmiz üçün digər əhəmiyyətli mövzular ətrafında dünya ictimaiyyətinin məlumatlandırılmasında mühüm rol oynayırlar. 2014-cü ildən Təhsil Nazirliyi Dövlət Proqramı çərçivəsində təhsil alan və məzun olmuş təqaüdçülərin uğurlarının və müvəffəqiyyət hekayələrinin ictimaiyyətə çatdırılması üçün yeni "Rüblük İcmal” layihəsini təqdim edir. Rüblük İcmalın bütün buraxılışları ilə aşağıdakı keçiddən tanış ola bilərsiniz:
**http://xaricdetehsil.edu.gov.az/cdphaqqinda/rblkicml/**

## İCMAL:

DP MƏZUNLARININ UĞURLARI

TƏDBİRLƏR VƏ NAİLİYYƏTLƏR

MÜKAFATLAR

# “1918-1920-Cİ, 1969-82-Cİ VƏ 2007-2015-Cİ İLLƏRDƏ DÖVLƏT HESABINA XARİCDƏ TƏHSİL”LƏ BAĞLI FOTO SƏRGİ

*RÜBLÜK İCMAL*









## 12-Cİ BEYNƏLXALQ TƏHSİL SƏRGİSİ KEÇİRİLMİŞDİR

Azərbaycan Respublikası Prezidentinin 10 yanvar 2018-ci il tarixli Sərəncamı ilə 2018-ci il Azərbaycan Respublikasında “Azərbaycan Xalq Cümhuriyyəti İli” elan edilmişdir. Bununla əlaqədar olaraq Azərbaycan Respublikası Nazirlər Kabinetinin 16 yanvar 2018-ci il tarixli 24s nömrəli sərəncamı ilə “Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyinin keçirilməsinə dair Tədbirlər Planı“na uyğun olaraq, “1918-1920-ci, 1969-82-ci və 2007-2015-ci illərdə dövlət hesabına xaricdə təhsill”ə bağlı 11-13 oktyabr, 2018-ci il tarixində 12-ci Beynəlxalq Təhsil Sərgisində foto guşə təşkil olunmuşdur. Sərgidə hər 3 dövrə aid xaricdə təhsil alan tələbələrin “TEAS” Press və Azərbaycan Respublikası Milli Arxiv İdarəsindən, eyni zamanda müasir dövrə aid müxtəlif formatda 50-ə yaxın foto şəkillər nümayiş etdirilmişdir.

# DÖVLƏT PROQRAMI MƏZUNU "SƏFİRİN XÜSUSİ MÜKAFATI" İLƏ TƏLTİF OLUNUB

*“2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı”*







## RƏŞAD GÜLMƏMMƏDOV

Dövlət Proqramı çərçivəsində B.Britaniyanın Mançester Universitetində "Neft-qaz yataqlarının işlənməsi və istismarı" üzrə magistratura və doktorantura təhsili almış Rəşad Gülməmmədov 11 Dekabr, 2018-ci ildə Azərbaycanda ilk dəfə keçirilən “UK Global Alumni Awards” mükafatlarının təqdimetmə mərasimində "Səfirin xüsusi mükafatı" ilə təltif olunmuşdur. Bu il beynəlxalq mükafatı əldə etmək üçün 123 ölkədən olan və Birləşmiş Krallığın 140-dan artıq ali təhsil müəssisəsini təmsil edən 1700-dən artıq Birləşmiş Krallıq məzununun ərizəsi daxil olub. Bu uğuru münasibətilə R.Gülməmmədovu təbrik edirik!

OKTYABR-DEKABR 2018

# YENİ TƏYİNAT

## "2007-2015-Cİ İLLƏRDƏ AZƏRBAYCAN GƏNCLƏRİNİN XARİCİ ÖLKƏLƏRDƏ TƏHSİLİ ÜZRƏ DÖVLƏT PROQRAMI"



Dövlət Proqramı çərçivəsində ABŞ-ın Tufts Universitetində "Diplomatiya" ixtisası üzrə magistratura təhsili almış Qaya Məmmədov 16 Oktyabr, 2018-ci il tarixində Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən Azərbaycan Respublikasının NATO yanında Nümayəndəliyinin başçısı təyin olunmuşdur. Bu münasibətlə məzunumuzu təbrik edir və ona gələcək fəaliyyətində uğurlar arzu edirik!

# DÖVLƏT PROQRAMI MƏZUNU AZƏRBAYCAN TƏLƏBƏLƏRİNİN II QURULTAYINDA

*Rüblük icmal*




21.12.2018-ci il tarixində Təhsil, Gənclər və İdman nazirliklərinin birgə təşkilatçılığı ilə Heydər Əliyev Mərkəzində Azərbaycan tələbələrinin II qurultayı keçirilib.
Sözügedən qurultayda "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı" çərçivəsində Böyük Britaniyanın Liverpul Universitetinin "Təchizat zəncirinin idarəedilməsi" ixtisası üzrə magistraturasında təhsil almış Ümid Mehdiyev Dövlət Proqramı məzunları adından çıxış etmişdir.
Ü.Mehdiyev çıxışında Azərbaycandan xaricdə təhsilə verilən dövlət dəstəyinin tarixi və əhəmiyyəti barədə məlumat verib.
Dövlət Proqramı məzunlarının  müxtəlif ali məktəblərin ("ADA" Universiteti, Bakı Ali Neft Məktəbi, Azərbaycan Dövlət İqtisad Universiteti, Azərbaycan Dövlət Pedaqoji Universiteti, Azərbaycan Dövlət Neft və Sənaye Universiteti və s.) nəinki inzibati idarəetməsində, həmçinin professor-müəllim heyətinin akademik bacarıqlarının müasirləşdirilməsində və tədrisin təşkilində nümunə olmaqla, həmin təhsil müəssisələrinin inkişaf prosesində mühüm rol oynamasından danışıb.
Ü.Mehdiyev hazırda Azərbaycan Dövlət Pedaqoji Universitetinin prorektoru vəzifəsində çalışır.

# MEDAL İLƏ TƏLTİF OLUNAN DÖVLƏT PROQRAMI MƏZUNLARI

RÜBLÜK İCMAL



## “DÖVLƏT QULLUĞUNDA FƏRQLƏNMƏYƏ GÖRƏ” MEDALI İLƏ



Dövlət Proqramı çərçivəsində Böyük Britaniyanın "London School of Economics" Universitetində "İnformasiya sistemlərinin idarəolunması və rəqəmsal innovasiyalar" ixtisası üzrə magistratura təhsili almış Ceyhun Salmanov "ASAN Xidmət" işçilərinin peşə bayramı günündə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən "Dövlət qulluğunda fərqlənməyə görə"medal ilə təltif olunmuşdur.

## "TƏRƏQQİ"MEDALI İLƏ



Dövlət Proqramı çərçivəsində Çexiyanın "Charles University" ali təhsil müəssisəsində "Beynəlxalq iqtisadi və siyasi elmlər" ixtisası üzrə magistratura təhsili almış Əbdül Əliyev isə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən "Tərəqqi"medal ilə təltif olunmuşdur.

OKTYABR-DEKABR 2018

# MƏZUNLARIN UĞURLARI

RÜBLÜK İCMAL





## LƏZİFƏ KƏRİMLİ

Türkiyə/Bilkənt Universiteti/Bakalavriat-"Beynəlxalq əlaqələr" ixtisası

Dövlət Proqramı məzunu Ləzifə Kərimli ölkəmizdə Britaniya Şurası tərəfindən keçirilən IELTS imtahanlarında  9 bal toplayaraq ən yüksək nəticəni göstərmişdir.Bildiririk ki, L.Kərimli hal-hazırda üzrə ingilis dilindən IELTS üzrə müəllimlik fəaliyyəti ilə məşğuldur.

Uğurla nəticə qazandığı üçün Dövlət Proqramı məzununu təbrik edirik və ona nailiyyətlərinin davamlı olmasını diləyirik!

## CAVİD CABBARZADƏ

Türkiyə/Hacəttəpə Universiteti/Rezidentura-"Qulaq, burun, boğaz və baş boyun cərrahiyyəsi" ixtisası

Tibb sahəsi üzrə ixtisaslaşmış gənclərimizdən olan Dövlət Proqramı məzunu Cavid Cabbarzadə "Üz plastik və rekonstruktiv cərrahiyyə" üzrə diplomat təyin edilmişdir. Belə ki, 18 Oktyabr, 2018-ci il tarixində Beynəlxalq Üz Plastik Cərrahiyyəsi Akademiyaları tərəfindən sertifikatlaşdırılaraq "European Board Certified Facial Plastic Surgeon" ilə təltif olunmuşdur. Bu sertifikatı əldə etmiş ilk Azərbaycanlı olmaqla yanaşı, hazırda ölkəmizdə həm qulaq-burun-boğaz, həm də üz plastik cərrahiyyəsi üzrə ölkə xaricində sertifikatlaşdırılmış yeganə cərrah olaraq Dövlət Rroqramı məzunu ilə qürur duyur və ona uğurlar arzu edirik!

# DÖVLƏT PROQRAMI MƏZUNLARI “AZƏRBAYCAN B.BRİTANIYA MƏZUNLARI İCTİMAİ BİRLİYİ”NİN (“AUKAA”) 2019-CU İL ÜÇÜN YENİ İDARƏ HEYƏTİNƏ SƏDR VƏ ÜZV SEÇİLMİŞLƏR.

RÜBLÜK İCMAL






AUKAA-nın il boyu göstərdiyi fəaliyyətlər, eyni zamanda cəmiyyətə verdiyi töhfələr barədə hesabatı üzvlərə, həmçinin ictimaiyyətə təqdim etmək və 2019-cu il üçün yeni idarə heyətinin formalaşdırılması məqsədilə 19.12.2018-ci il tarixində seçki keçirilmişdir. Seçki nəticəsində “2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı” çərçivəsində Mançester Universitetinin “Mexanika mühəndisliyi və idarəetmə” ixtisası üzrə bakalavriat səviyyəsində təhsil almış İlham Rəcəbov yeni idarə heyətinin sədri, Lankastr Universitetinin “İnsan resursları və konsaltinq” ixtisası üzrə magistraturasında təhsil almış Əsmər Yusifova isə üzvü seçilmişlər. Hər iki məzunu bu münasibətlə təbrik edirik.

# XARİCDƏ TƏHSİL ALAN GƏNCLƏR YENİ DÖVLƏT PROQRAMI HAQQINDA

RÜBLÜK İCMAL



Ümid MEHDİYEV



İnqilab ŞAHBAZOV



Mədinə QULİYEVA



Aysel MUSAYEVA



Səncər ƏHMƏDOV



Olesya RAZUVAYEVSKAYA



Məlum olduğu kimi, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müvafiq sərəncamı ilə təsdiq edilmiş “2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı” ölkəmizin təhsil ictimaiyyətində maraqla qarşılanıb. Dünya ali təhsil sistemində baş verən dəyişikliklərə cavab olaraq Azərbaycanda intellektual potensialın gücləndirilməsinə xidmət edən bu sənəd dünyanın nüfuzlu universitetlərində təhsil alan və məzun olaraq hazırda əmək fəaliyyəti ilə məşğul olan gənclərimiz tərəfindən də maraqla qarşılanmaqdadır. “Azərbaycan müəllimi” qəzetinə fikirlərini bölüşən gənclər yeni Dövlət Proqramının qəbulunu ölkəmizin elmi potensialının inkişafına mühüm töhfə kimi qiymətləndirirlər.

## ƏTRAFLI:

HTTPS://EDU.GOV.AZ/AZ/PAGE/9/15814

# Rüblük icmal



*Hörmətli Dövlət Proqramı təqaüdçüləri,*
*Rüblük icmalın növbəti buraxılışlarında öz uğurlarınızı, nailiyyətlərinizi görmək istəyirsinizsə, müvafiq məlumatları bizimlə paylaşmağınızı tövsiyə edirik.*

**Gülminə Məlikzadə**
(gulmina.melikzade@edu.gov.az)

**Rəvan Süleymanov**
(revan.suleymanov@edu.gov.az)

Dövlət Proqramı Məzunlar Şəbəkəsi/State Program Alumni Network

Dövlət Proqramı çərçivəsində xaricdə təhsil alan Azərbaycanlı gənclər qrupu

Dövlət Proqramı Məzunlar Şəbəkəsi/State Program Alumni Network